Yarışın keçirilməsində məqsəd bu yaş qrupunda "Təhsil" RİM-in yığma komandasını müəyyənləşdirməkdən ibarətdir.

Tədbirin açılış mərasimində "Təhsil" RİM-in direktoru Natiq Lahıcov bildirib ki, belə yarışlar boksun təbliği və inkişaf etdirilməsinə, eyni zamanda yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyəsinə töhfə verir.

Birincilikdə Təhsil Nazirliyinin tabeliyində olan iyirmi idman məktəbinin ümümilikdə 140 idmançısı mübarizə aparıb. Gərgin keçən görüşlərin nəticələrinə əsasən, komanda hesabında I yerə "Təhsil" RİM-in 1 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin komandası, II yerə Gəncə şəhər 1 saylı Uşaq-Gənclər İdman Məktəbinin komandası, III yerə Ağdaş rayon Uşaq-Gənclər İdman Məktəbinin komandası layiq görülüb.

Müxtəlif çəki dərəcələrində və komanda hesabında yer qazanan qaliblərə medal, diplom və kuboklar təqdim olunub.